

*Camal Zeynaloğlu*

# Görkəmli alim, nəcib insan

**Şərqin etika və əxlaq nəzəriyyəçilərindən biri vaxtilə yazmışdır ki, "mən ən güclü, ən qüdrətli, ən zəkalı o adamı hesab edirəm ki, o, öz istəklərini idarə etməyi bacarır." Doğrudan da bu sözlərdə böyük həqiqət var. Əgər bizim hər birimiz öz maddi və mənəvi tələbatlarımızı, arzu və istəklərimizi lazımi səviyyədə idarə etməyi bacarsaq, o zaman biz əxlaqca təmiz, saf, mənəviyyatca daha zəngin olarıq.**

Hazırda elə bir dövrdə yaşayırıq ki, maddi tələbatlar hər cəhətdən mənəvi tələbatları üstələməyə çalışır. Məsələn, vaxtilə elmi fəaliyyətinə, şəxsiyyətinə və dərin zəkasına hörmət etdiyimiz bir insan həyatın bu çətin sınağına dözməyib, istər-istəməz müəyyən qüvvələrin təsiri altında maddiyyət aləminə üz tutmaq məcburiyyətində qalır. Bəzən belələrini qınamaq da olmur. Çünki, yaşayış uğrundakı mübarizə belə insanları dilemma qarşısında qoyur.

Amma həyatda elə insanlar da var ki, onları tutduğu yoldan, ideyalarından, əqidəsindən, özünətələbkarlıq, əxlaq və mənəviyyata vurğunluqdan, sadəliyindən, başqalarına qarşı səmimiliyindən, məsuliyyət hissini dərkdən heç bir maddiyyət uzaqlaşdıra bilmir. Belə insanlardan biri on səkkiz il bundan öncə tanış olduğum, ilk baxışdan məndə qeyri-adi yüksək təəssürat yaradan "Respublika" qəzetinin baş redaktoru, filologiya elmləri doktoru, professor Teymur Əhmədovdur.

Hər şeydən öncə, Teymur müəllimin həyatına qısa bir nəzər salaq. T.Əhmədov 25 dekabr 1930-cu ildə Şəmkir şəhərində anadan olmuş, 1936-cı ildə ailəlikcə valideynlərinin vaxtilə deportasiya olunduğu İrəvana köçmüşdür. 1949-cu ildə Qərbi Azərbaycanın Zəngibasar (indiki Masis rayonu) rayonunda orta məktəbi qızıl medalla bitirmiş, təhsilini 1949-1954-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində davam etdirmişdir. Eyni zamanda 1954-1958-ci illərdə Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetində müxtəlif vəzifələrdə çalışmış, Ermənistan KP İrəvan şəhər komitəsi yanında Marksizm-Leninizm Axşam Universitetini (1955-1957), Moskvada isə "Pravda" qəzeti nəzdində olan Ümumittifaq jurnalistika və fotoreportaj üzrə qiyabi lektoriyanın jurnalistika şöbəsini (1959-1961) bitirmişdir.

1961-1964-cü illərdə AEA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda aspirantura təhsili almış, "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik (1966), "Nəriman Nərimanovun yaradıcılıq yolu" mövzusunda doktorluq işi müdafiə etmişdir. 1984-cü ildə nəşr edilən "Nəriman Nərimanov" kitabı rus, ingilis, fransız və ərəb dillərində kütləvi tirajla nəşr edilib.

1965-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında şöbə müdiri, 1968-ci ildə AEA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində müdir müavini (1968-1990), 1988-ci ildən aparıcı elmi işçi olmuşdur.

1990-1991-ci illərdə "Vətən həsrəti", 1992-1993-cü illərdə "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru işləmişdir. 1996-cı ildən Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, 1995-ci ildən "Respublika" qəzetinin baş redaktorudur.

Səmərəli əməyi dövlət tərəfindən yüksək dəyərləndirilərək Azərbaycan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı (1982), akademik Yusif Məmmədəliyev adına mükafat və medalla qiymətləndirilmiş, 1996-cı ildə "İlin layiqli ziyalısı" fəxri adına layiq görülmüş, 2002-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Teymur Əkbər oğlu Əhmədov ilk gənclik illərindən bədii yaradıcılıqla da məşğul olmuş, "Ülkər" adlı şeir və hekayələr kitabı 1961-ci ildə İrəvanda işıq üzü görmüşdür. "Dostluq nəğməkarı", "Nəriman Nərimanovun dramaturgiyası", "Nəriman Nərimanov", "Vedibasarın qanlı-qadalı günləri", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)", "Mirzə İbrahimov" və s. monoqrafiyaları dərin oxucu marağı qazanıb. "Azərbaycan sovet yazıçıları (ədəbi sorğu kitabı)" (1987), "Azərbaycan yazıçıları (Ensiklopedik məlumat kitabı)" (1995) da onun məhsuldar əməyi sayəsində araya-ərsəyə gəlib.

2007-ci ildən başlayaraq Azərbaycan mətbuatında dərin iz qoymuş "Füyuzat" jurnalının 100 il sonra yenidən təsisinə başlayan Teymur Əhmədov "Füyuzat" jurnalının baş redaktorudur.

Mən o zaman qısa tanışlıq ərzində Teymur müəllimin necə yüksək insani keyfiyyətlərə malik olduğunu gördüm. O, təkcə özünə deyil, həm də ilk dəfə onunla ünsiyyət körpüsü yaradan adama böyük hörmətlə yanaşır, onu səbrlə, diqqətlə axıra kimi dinləməyi bacarır. Teymur müəllim tərifdən, riyakarlıqdan, yaltaqlıqdan zəhləsi gedən bir insandır. O eyni zamanda heç vaxt kiminsə köməyinə ehtiyac duymur. Başqaları kimi nəyinsə, kiminsə xatirinə özünü nümayiş etdirməyi xoşlamır. Ona etibar edilmiş işə məsuliyyətlə yanaşır, həmişə çalışır ki, üzərinə götürdüyü işdə səhvə yol verməsin.



Teymur müəllim hər şeyin yerini bilən adamdır. O, eyni zamanda əxlaqi kamilliyi qiymətləndirməyi bacaran bir şəxsiyyətdir.

İndiki dövrdə müəyyən ideyalara axıra kimi sadiq qalmaq hər insana nəsib olmur. İdeyasız yaşamaq isə insanı mənəvi cəhətdən yoxsullaşdırır. Ancaq insana hakim olan ideyaları qoruyub saxlamaq adamdan böyük iradə, qüvvə tələb edir. Bəzən insanın elə anları olur ki, onu bürümüş hisslər əhval-ruhiyyəyə və iş fəaliyyətinə mənfi təsir göstərir. Belə halda zəif iradə sahibləri ötərgi həzz dalınca qaçaraq, əsas və həyatının mənasını təşkil edən ideyadan əl çəkməli olur. Teymur müəllimdə əxlaqi və iradi özünütərbiyə o qədər güclüdür ki, o, bu ötərgi hissləri dəf etməyi bacarır. O, həm də qayğıkeş, xeyirxah, nəcib və səmimi bir insandır. Onun yanına gələnləri, yaşından asılı olmayaraq xoşsifətlə qəbul edir, gülərüzlə yola salır.

Teymur müəllim hazırda rəhbərlik etdiyi "Respublika" qəzetinə ən çətin anlarda gəlib. Ölkədə baş verən hadisələrin çevikliyi, qeyri-stabillik, hərc-mərclik, dəqiqləşdirilməmiş və yoxlanılmamış informasiyaların qəzet səhifələrinə çıxarılması baş alıb gedir, nəticədə xalqın çaş-baş salınmasına və onlarda dövlətçiliyin qorunması və möhkəmləndirilməsi sahəsindəki işlərə qarşı şübhə toxumu səpilməsinə, yenidən hakimiyyətə qayıtmış dünya şöhrətli siyasətçi, cahanşümul siyasi lider H. Əliyevin atdığı addımlara kölgə salmağa cəhd göstərilirdi. Onlara layiqli cavab verə bilən, dövlətçilik ənənələrini, ideyalarını düzgün təbliğ etməyi qarşısına məqsəd qoyan rəsmi mətbuata zərurət yaranmışdır.

Belə bir ağır şəraitdə T.Əhmədova çətin bir missiyanı öz üzərinə götürmək təklif olundu. Ömrü boyu gördüyü işlərlə, elmi və bədii yaradıcılığı ilə xalqına xidmət göstərən Teymur müəllim bu dəfə də şərəfli bir işi öz üzərinə götürdü. Onun rəhbərlik və təşkilatçılıq bacarığı yaradıcı kollektivin tez bir zamanda öz işlərində dönüş yaratmalarına kömək etdi. Teymur müəllim sutkanın təxminən 16 saatını iş başında keçirir. Bu cür iş qabiliyyəti hər adamda ola bilməz.

Yaşın belə çağında bu qədər işləmək insandan böyük enerji, yüksək dözüm, qətiyyətlilik, prinsipiallıq, yüksək iradə, hövsələ, dərin düşüncə və təhlil etmək bacarığı, özünə möhkəm inam, əqli baxımdan sarsılmazlıq, əməksevərlik, çalışqanlıq və kəskin dərəcədə fəallıq tələb edir.

Sadaladığımız insani xüsusiyyətlərin hamısı məhz Teymur müəllimdə cəmlənmişdir.

Teymur müəllim öz xalqına, millətinə təmənnasız xidmət edən, ömrünü el yolunda xərcləyən insanlardandır. O, heç zaman gördüyü işləri gözə soxmağa çalışmır.

Belə ki, bu barədə hörmətli akademikimiz Budaq Budaqov özünün "Vətənpərvər ziyalı" adlı məqaləsində professor Teymur Əhmədov haqqında belə yazır: "...Azərbaycanın böyük oğlu, görkəmli dövlət xadimi Nəriman Nərimanovun həyat və yaradıcılığına həsr olunmuş fundamental tədqiqat işləri, silsilə əsərlər toplusu isə Teymur Əhmədovun yaradıcılığının şah damarını təşkil edir. İmperiya dövründə ermənilərin Moskvadakı havadarlarının səyi ilə üzərinə "millətçi", "antibolşevik" damğası vurulan Nəriman Nərimanov kimi böyük şəxsiyyətin üzə çıxarılıb xalqımızın tarixində yenidən öz layiqli yerini tutmasında Teymur müəllimin xidmətləri əvəzsizdir. Bütün çətinliklərə, təpkilərə baxmayaraq Teymur Əhmədov heç nədən və heç kimdən çəkinməyərək sözünü axıra qədər, qətiyyətlə deyib... Professor Teymur Əhmədov görkəmli dövlət xadimi Nəriman Nərimanovun həyat və yaradıcılığını bütün incəlikləri ilə geniş spektrdə xalqın sərvətinə çevirdi. N.Nərimanov kimi görkəmli şəxsiyyətin elmi, ictimai-ədəbi fikirdə yenidən canlanmasına yardımçı oldu..."

Teymur müəllim müstəqil Azərbaycanımızın daha da inkişaf edib çiçəklənməsi naminə yorulmadan fəaliyyət göstərən, müstəqil mətbuatın, azad sözün inkişafı yolunda hər çətinliyə sinə gərən və bu sahədə xüsusi xidmətləri olan şəxsiyyətlərdəndir. O, həm də zamanla döyüşən alimdir.

T.Əhmədov öz xalqının taleyi, tərəqqisi naminə ömrünü şam tək əridən insanlardandır.

**Tənqidçi, ədəbiyyatşünas, görkəmli alim, nəcib və xeyirxah insan, filologiya elmləri doktoru, professor Teymur Əhmədovu 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona həyatda şirin nemət olan cansağlığı, şərəfli və uzun ömür, tükənməz elmi, bədii-ədəbi yaradıcılıq uğurları və qarşıdan gələn illərdə daha sevindirici və fərəhli günlər arzulayırıq.**